# QONAQKƏND VƏ ŞAMAXI FİZİKİ-COĞRAFİ RAYONLARININ ƏRAZİSİNDƏ QIZILQUŞKİMİLƏR (*Falconiformes*) DƏSTƏSİNİN LEY (*Circus*) CİNSİNƏ MƏNSUB NÖVLƏRİN HAZIRKI VƏZİYYƏTİ BARƏDƏ

**Leyla Əhmədli**

*AR ETN Zoologiya İnstitutu, Bakı*
*Leyla.axmedli97@mail.ru*

Son illərdə ölkəmizin sosial-iqtisadi inkişafı ilə əlaqədar olaraq dağ landşaftları da intensiv şəkildə transformasiya (turizm, rekreasiya, tikinti, nəqliyyat, əkinçilik və s.) olunur. Belə ərazilərdən birini də Böyük Qafqaz vilayətinə aid olan Şamaxı və Qonaqkənd fiziki-coğrafi rayonları təşkil edir. Sözsüz ki, həmin rayonlarda təsərrüfat işlərinin genişlənməsi burada quş faunasının tarixən formalaşmış yaşayış yerlərinin itirilməsinə, sinantroplaşmaya, ərazidə növlərin spektrinə, say dinamikalarına öz mənfi təsirini göstərmiş olur. Bu baxımdan özlərinə məxsus ekoloji, etioloji adaptasiya xüsusiyyətlərinə malik qızılquşkimilərə mənsub çöl leyi (*C.macrourus*), tarla leyi (*C.cyaneus*), çəmən leyi (*C.pygargus*) və qamışlıq leyi (*C.aeruginosus*) ekosistemlərdə itirilməsi real olan növlərdən birini təşkil edirlər. Qeyd edilənləri nəzərə alaraq, Qonaqkənd

fiziki-coğrafi rayonunun təbii və antropogen landşaftlarında bu növlərin növ tərkibini, saylarını və yayılmasını öyrənməyi qarşıya məqsəd qoyduq.







Tədqiqatın aparıldığ Qonaqkənd və Şamaxı fiziki-coğrafi rayonlarının xəritəsi

2021-2023-cü illərdə may, iyun, iyul, sentyabr aylarında aparılan monitorinq nəticəsində müəyyən edildi ki, bu növlərdən 3-ü Qonaqkənd və Şamaxı fiziki-coğrafi rayonu ərazisində köçəri yuvalayan, qamışlıq leyi isə oturaq növdür. Bütün 4 növ rayonun (Şamaxı, Şabran, Xızı, Siyəzən rayonları) düzənlik dağ landşaftlarında qeydə alınır. Tarla leyi, çəmən leyi, çöl leyi çəmən, seyrək kolluq, hündürotlu biotoplarda məskunlaşırlar.

Qamışlıq leyi isə qamışla örtülü olan su hövzələrində məskunlaşır. Nəsilvermə dövründə yuvalamağa gələn 3 növ torpaq üzərində otların arasında, qamışlıq leyi isə qamış və ya kol üzərində yuva qururlar.

Tədqiqatın aparıldığı ərazilərdə (Şamaxı, Şabran, Xızı, Siyəzən rayonları) tarla və çəmən leyinin cəmi 1-2 fərdi, çöl leyinin 1-3 fərdi, qamışlıq leyinin isə 5-7 fərdi qeydə alınmışdır. Qamışlıq leyi ancaq Şabran rayonunun Ağzıbirçala sahəsində qeydə alınır. Qamışlıq leyi quru quşu olsa da, həyatı su mühiti ilə bağlıdır. Yəni, yemini suda yaşayan quşlar, siçovul və nutriya təşkil edir. Digər 3 növ isə quru quşudur, yuvalaması və yemlənməsi açıq düzənlik ərazilərdə olur. Şamaxı rayonu ərazisində məskunlaşır. Qonaqkənd və Şamaxı fiziki-coğrafi rayonlarının orta və yüksək dağlıq zonalarında bu növlər qeydə alınmadı. Bu növlərdən yalnız biri – çöl leyi Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil edilib. Göründüyü kimi, digər növlərin də sayı azdır. Bu da həmin növlərə təsir edən mənfi antropogen amillərin artması ilə əlaqədardır. Əsas limit amilləri yuvalama sahələrinin azalması (əkinçilik, mal-qara otarılması, ekoturizm, tikinti) və yem obyektlərinin tədricən məhdudlaşmasıdır. Bu növləri səmərəli şəkildə mühafizə etmək üçün yuvaladıqları biotoplar nəsilvermə dövründə təbiət abidəsi kimi qorunmalıdır. Yəni yuvalama dövründə həmin sahədə tədbirlərin həyata keçirilməsi (məsələn: ot çalımı, mal-qara otarılması, ekoturizm və s.) məhdudlaşdırılmalıdır.